# Müzakirənin hədəfi "Xələflinin poetikası" idi








Əli Rza Xələfli adı Azərbaycanın müasir,görkəmli yazarları arasında artıq öz yerini möhkəmləndirib;fərdi üslubunun bənzərsizliyi və poetik təfəkkürünün mükəmməlliyi şeirlərindəki metaforik təbiətin ictimai-fəlsəfi və estetik kanonlarda görünməsi baxımından.

Oktyabr ayının 13-də AYB Natəvan klubunda filologiya üzrə fəlsəfə doktoru,ədəbi tənqidçi Əkbər Əlioğlunun "Xələflinin poetikası"monoqrafiyasının təqdimatı zamanı Xələflinin ədəbi boy göstərənliyi ayrı-ayrı çıxışlarda bir daha etiraf olundu.Və yeri gəldikcə məcrası "Xələflinin poetikası"na istinadlarla genişləndi. Filologiya elmləri doktoru, professor,ədəbi tənqidçi Vaqif

Yusifli, tanınmış cavab tənqidçi Əsəd Cahangir və tədbirin aparıcısı yazıçı-publisist Südabə Sərvi, eləcə də şərqşünas alim Hafiz Rüstəm öz çıxışlarını kitabın məzmunu və ideya istiqamətinə uyğun ampulada quraraq monoqrafiyanın əhəmiyyət kəsb etdiyini vurğuladılar.Həmçinin,dosent, AYB üzvü Fəxrəddin Əliyev, Əməkdar mədəniyyət işçisi,naşir Adil Abdullayev və yazıçı-publisist Nəzirməmməd Zöhrablı, şair Rafiq Musa Əli Rza Xələfli və Əkbər Əlioğlu paralelliyinin konturlarını göstərərək əsərin dəyərli olduğunu bəyan etdilər. Ədəbiyyat araşdırıcıları Hafiz Rüstəmli,Namiq

Hadi, yazıçı Əfşan Yusifqızı, şair Dayandur Sevgin, Akademik Dram teatrının baş rəssamı Tarix Kərimov və başqaları Əkbər Əlioğlunun yaradıcılığı barədə yığcam çıxışlar edərək kitabının nəşri münasibətilə təbriklərini dilə gətirdilər.



Birinci sinif şagirdi Zəhra Əliyevanın söylədiyi şeir tədbirə xüsusi bir ovqat yaşatdı.

Əli Rza Xələfli tədbirdə çıxış edərək kitabın məziyyətləri barədə mülahizələrini auditoriya ilə bölüşdü və yeni yazdığı "Kiməm"şerini oxudu. Tədbirin sonunda Ə.Əlioğlu iştirakçılara xüsusi minnətdarlığını bildirdi.

*Nəzirməmməd ZÖHRABLI,*
*yazıçı, publisist*